# Yaxşı insan, yaxşı aktyor



## Xalq artisti İlham Əsgərov “Sözümü hələ deyə bilməmişəm...” deyirdi



**Bu gün səhər Facebook-a daxil olarkən qarşılaşdığım ilk xəbər Xalq artisti İlham Əsgərovun ölümü ilə bağlı oldu. “Bir-bir gedirlər. Bunlar indiki gəncliyin başa düşməyəcəyi, düşə bilməyəcəyi adamlardır. 80-ci illərin nağıl-adamları. Məsələn, ”Sarıköynəklə Valehin nağılı” kimi... Gedirlər... Yerlərində Rafael-Coşqun, Rəqsanə, Məleykə-zad qalır.... Təəssüf...”- deyə jurnalist Famil Cəfərli yazmışdı. Aktyorun ölümündən təsirlənənlərin hamısı da “yaxşı insan, yaxşı aktyor idi”- deyə təəssüfünü gizlətmirdi...**

57 yaşlı aktyor infarkt keçirməsi nəticəsində dünyasını dəyişib. Bir neçə il öncə İ.Əsgərovun beyninə qan sızmış, insult keçirmişdi. Amma uzun müalicədən sonra sağalıb işinə qayıtmışdı. Yenidən həyatı qədər sevdiyi səhnəyə çıxır, tamaşalarda rollarını oynayırdı...

Bu yaxınlarda özüm də onunla əlaqə saxlayıb “Ədəbiyyat” əlavəsi üçün hazırladığım yazıya fikirlərini öyrənmişdim. Teatrda yaxşı rejissorların olmamasından, tamaşaçı marağının azalmasından, maraqlı əsərlərin yoxluğundan xeyli gileyləndi. Həmişə optimist olan, gələcəyə ümidlə baxan aktyorun birdən-birə belə pessimizmə qapılması təbii ki, təkcə xəstəliyi ilə bağlı deyildi. Bu günlərdə Akademik Milli Dram Teatrında rəhbərliyə qarşı yaranan narazılıqlarda, dövlət başçısına ünvanlanan müraciətdə onun da adı yer almışdı. Teatrda baş verən proseslər onun ürəyindən keçirdi...

### ELƏ OBRAZLAR OLUB Kİ...

İlham Əsgərova görə teatr elm idi, ocaq idi. Bu ocaqda hər şey onun üçün doğma idi, əziz idi: “Teatr elə bir sənət növüdür ki, nə qədər texniki inkişaf olsa da, o yenə öz yerindədir. Görürsünüz, nə qədər telekanallar açılır, nə qədər insanların zövqü pozulur və nə qədər informasiya bolluğu var. Amma zaman vardı insanları yalnız tərbiyələndirən, maarifləndirən teatr idi. O vaxtkı tamaşaçılar bütün əsərləri əzbər bilirdi. Müasir dövrün tələbləri ayrıdır. Müasir teatrın da öz tamaşaçıları var. Teatr elmdir, ocaqdır. Ona əyləncə kimi baxmaq olmaz. Bu sənət ocağına gəlmək də hər yoldan ötənin işi deyil” - deyə mənimlə müsahibələrinin birində demişdi.

İlham Əsgərov 1982-ci ildən Akademik Milli Dram Teatrının səhnəsində idi. Görkəmli rejissor və aktyor Adil İsgəndərovun tələbəsi olmuşdu. Mehdi Məmmədovdan, Tofik Kazımovdan dərs almışdı. Tələbəlik illərindən söhbət düşəndə “Mən bu sənətə böyük arzularla gəlmişəm. Elə rejissorlar görmüşəm ki, fikirləşirdim, onlar dünya durduqca yaşayacaqlar. Təəssüf ki, onların həyatdan köçməsi bəzi arzularımızı ürəyimizdə qoydu. Amma bu gün də hələ nəsə gözləyirəm. Demək olar ki, sözümü hələ deyə bilməmişəm. Elə obrazlar olub ki, onları oynamaq mənə qismət olmayıb. Necə deyərlər, taleyimiz rejissorlardan asılıdır. Rejissorların tez-tez dəyişməsi, onların gah zəif, gah güclü olması bizim də taleyimizdə rol oynayır. Məni instituta yüksək qiymətlərlə qəbul edən Adil İsgəndərovun, eləcə də Tofiq Kazımovun, Mehdi Məmmədovun yeri görünür. Məni teatra da onlar dəvət elədilər”- deyə həvəslə danışırdı.

İlk dəfə Mərahim Fərzəlibəyovun «Közərən ocaqlar» tamaşasında rol alan aktyor sonradan rejissorun başqa tamaşalarında da oynayıb. Həmçinin Ağakişi Kazımovun quruluş verdiyi tamaşalarda obrazlar yaradıb: “Bu gün də ümidverici rejissorlarımız var. Onlara şərait yaratmaq lazımdır ki, istədiyimiz əsərləri səhnədə görə, ürəyimiz istəyən rolları oynaya bilək. Mən də bu arzularla yaşayan aktyorlardan biriyəm”- deyirdi.

İstedadlı aktyor Akademik Teatrın ən populyar tamaşalarında iştirak etmişdi. Mirzə İbrahimovun “Közərən ocaqlar”, Hüseyn Cavidin “İblis”, Nəriman Həsənzadənin “Atabəylər”, Bəxtiyar Vahabzadənin “Fəryad”, “Dar ağacı”, “Rəqabət”, İlyas Əfəndiyevin “Büllur sarayda”, “Mahnı dağlarda qaldı”, “Sevgililərin cəhənnəmdə vüsalı”, “Tənha iydə ağacı”, “Hökmdar və qızı”, Vilyam Şekspirin “Kral Lir”, Hidayət Orucovun “Bu dünyanın adamları”, Süleyman Sani Axundovun “Eşq və intiqam”, Əli Əmirlinin “Mesenat” və s. tamaşalarda oynadığı rollarla teatrsevərlərin qəlbinə yol tapmışdı. Azərbaycan Dövlət Televiziyasında Vilyam Şekspirin “İki veronalı”, İlyas Əfəndiyevin “Sarıköynəklə Valehin nağılı”, Aslan Qəhrəmanovun “Səndən xəbərsiz”, Mar Bayciyevin “Ər və arvad”, Bəxtiyar Vahabzadənin “Kimdir haqlı?”, Mövlud Süleymanlının “Fatehlərin divanı” və s. teletamaşalarında müxtəlif xarakterli obrazlara da səhnə ömrü vermişdi. “Niyə efirdə az-az görünürsünüz? Bunun səbəbi yaxşı teletamaşaların çəkilməməsi ilə bağlıdır?”- deyə soruşanda “Sovet dövründə müxtəlif mövzularda yaxşı tamaşalar çəkilirdi. Mən də o tamaşalara dəvət alırdım. İndi isə tamaşalar çəkilmir. Bəzi bayağı mövzulara toxunulur, camaatın zövqünü korlayırlar. Çox istərdik ki, klassik əsərlər ekranlaşdırılsın. Mən də həmin tamaşalarda oynamaq arzusu ilə yaşayıram” - deyə cavab vermişdi.

### “HAMLETİ OYNAYA BİLƏRDİM...”

İlham Əsgərov, həmçinin Azərbaycan Dövlət Radiosunun məşhur “Bulaq” verilişinin aparıcılarından idi. Poeziya qədər şirin səsi yaqin ki, uzun illər dinləyicilərin qulağından çəkilməyəcək: “Qiraət işi mənə çox kömək edir. Sənət aləminə gələndə bizi qiraətlə imtahan edirlər. Hər bir aktyor bunu bacarsa, çox yaxşı olar. Onlara kiçik bir şeir parçası və hekayə kimi baxmaq lazım deyil. Bu, böyük bir monoloqdur. İstənilən qiraət hər bir aktyora yalnız kömək edə bilər. Çünki istənilən yerdə aktyorun söz ehtiyatı olmalıdır. Bu, aktyorun hər bir zaman və hər yerdə öz fikrini ifadə etməsinə yalnız kömək edər”- deyə bildirirdi.

Aktyor bütün yaradıcılığı boyu işinə sonsuz məsuliyyətlə yanaşmışdı. Tamaşaçıya yaxşı tamaşa təqdim etməyi, onu maarifləndirməyi özünün müqəddəs işi bilirdi: “Böyük teatr sənətinin böyük məqsədi gözəl tamaşalarla tamaşaçını maarifləndirmək, zövqünü təkmilləşdirməkdir. Tamaşaçılara tərbiyəvi əhəmiyyəti olan əsərlər əsasında hazırlanan tamaşalar təqdim etmək lazımdır. Görün o vaxt aktyorlar hansı tamaşaları oynayıblar? Onlar klassik əsərlərdə yetişiblər. Bu gün bizə klassik əsərlər hər şeydən vacibdir. Düzdür, müasir əsər də lazımdır. Ancaq müasir əsəri oynamaq üçün gərək klassik əsərdə bişəsən. Bu yolu məktəb kimi keçmək lazımdır. Gərək klassik əsərlərin məktəbini keçəsən ki, müasir əsərləri də yaxşı oynaya biləsən. Müasir əsərlər də şou deyil. Çünki şoular səviyyəsiz şeylərdir. Gərək müasir əsərə klassik gözlə baxasan. Nə vaxtsa bugünkü müasir əsər də klassik əsərə çevrilə bilər”.

İ.Əsgərov filmlərə də çəkilmişdi. Elxan Qasımovun «Biz qayıdacağıq», Ənvər Əblucun «Tərsinə çevrilmiş dünya», Tofiq İsmayılovun 1985-ci ildə çəkdiyi iki seriyalı «Əlahiddə vəziyyət» filmlərində obrazlar oynamışdı: “Bəzən elə olub ki, dəvət aldığım filmdə bir saatın içində yerimi dəyişiblər. 2-ci kursda oxuyanda Həsən Seyidbəyli mənim efirdə şeir deməyimi eşidib Nizami roluna dəvət etmək istəyirdi. Ancaq iki aydan sonra o dünyasını dəyişdi. Daha sonra «Babək» filmində Bəbəkin oğlunu oynamaq üçün seçilmişdim. Ancaq sonra eşitdim ki, filmin çəkilişi artıq qurtarıb. Məndən soruşdular ki, sənin adamın yoxdur gəlsin? Dedim axı, adamım yox, özüm çəkilirəm. Başqa filmlərdə də bu cür hadisələr oldu. Son vaxtlar isə yenə də dəvətlər almağa başlamışam. Mən kinoda klassik bir şair rolunu oynamaq istəyirəm. Ancaq hələ mənə belə bir obraz təklif olunmayıb”.

Aktyorun oynamaq istədiyi, arzusunda olduğu rollar vardı. Bəzən layiq olduğu rolları ona verməmişdilər. Bəzən onu oynaya biləcəyi obrazlardan məhrum etmişdilər. Bəzən oynamaq istədiyi rola uyğun gəlməmişdi. Arzusunda olduğu rolu dilə gətirmədiyi məqamlar da olmuşdu. Beləcə obrazlarla bağlı bir çox xəyalları qırılmışdı: “Teatra gəldiyim vaxtlarda - 25-26 yaşlarımda Hamleti oynaya bilərdim. Təəssüf ki, bu olmadı! «Ölülər»də İsgəndəri oynaya bilərdim. Bu da olmadı! Mən komediyalarda oynamaq istəyirdim. Orta məktəbdə və institutda oxuduğum illərdə komediyalarda oynayırdım. Ancaq kurs rəhbərim Böyükağa Kazımov məni ciddi planda kəşf etdi. Sonra da Adil İsgəndərov kursumuzun oynadığı kiçik səhnələrə baxıb məni yaxşı qiymətləndirdi. Sonra isə teatr aləminə düşdüm. Burada rejissorların rol bölgüsündən çox şey asılıdır. Rol bölgüsü tamaşanın yarı müvəffəqiyyəti deməkdir. Bu bölgü düz olmayanda tamaşada zəiflik olur. Tamaşaçı da «bu rolu filankəs oynasaydı daha yaxşı olardı» - deyə düşünür” deyə içində qalan nisgilini dilə gətirirdi.

### YOLDAŞLARIMIZI İTİRMİŞİK

Bu gün İlham Əsgərovla vida mərasimi keçirilib. Mədəniyyət və turizm naziri Əbülfəs Qarayev, nazir müavini Ədalət Vəliyev, Akademik Milli Dram Teatrının direktoru İsrafil İsrafilov, aktyorun sənət dostları və tələbələri mərasimdə iştirak ediblər. İ. Əsgərovun Azərbaycan teatrının inkişafındakı xidmətlərindən, sənət yolundan danışılıb və onun yoxluğu Azərbaycan mədəniyyəti üçün itki kimi dəyərləndirilib. Sənət dostları onun haqqında ürək sözlərini dilə gətirib, dərin kədərlərini ifadə ediblər. Xalq artisti Rafiq Əzimov “Sağımıza baxırıq dostlarımızı, solumuza baxırıq yoldaşlarımızı itirmişik. O, səhnədə əvəzolunmaz insan idi. Allah ailəsinə səbir, yerdə qalan övladına cansağlığı versin!”- deyə bildirib.

Aktyor doğulduğu torpaqda – Masallı rayonunda dəfn olunub

Allah rəhmət eləsin!

**Təranə Məhərrəmova**

# İlham Əsgərovun vəfatı ilə əlaqədar nekroloq imzalandı

**Mədəniyyət və Turizm Nazirliyi və Azərbaycan Teatr Xadimləri İttifaqı xalq artisti, Prezident mükafatçısı İlham Əsgərov haqda nekroloq imzalayıb.**

Nekroloqda deyilir: ”Azərbaycan mədəniyyətinə ağır itki üz vermişdir. Teatr sənətinin tanınmış nümayəndəsi, Respublikanın Xalq Artisti, Prezident mükafatçısı İlham Təvəkkül oğlu Əsgərov 2015-ci il sentyabr ayının 6-da 57 yaşında qəflətən vəfat etmişdir.

İlham Əsgərov 1958-ci il iyul ayının 16-da Masallı rayonunun Xançobancı kəndində anadan olmuşdur. O, 1980-ci ildə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin dram və kino aktyoru fakültəsini bitirmişdir.

1982-ci ildən Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının aktyor truppasına qəbul edilən İlham Əsgərov ömrünün sonuna kimi taleyini bu sənət ocağı ilə bağlamışdır. Tanınmış sənətçi doğma teatrın səhnəsində, kino və televiziya ekranlarında yaddaqalan, maraqlı, rəngarəng obrazlar qalereyası yaratmışdır. Onun böyük ustalıqla ifa etdiyi Əli (M.İbrahimov ”Közərən ocaqlar”), Ərəb (H.Cavid ”İblis”), Əbubəkir (N.Həsənzadə ”Atabəylər”), Həbib, Nicat, Anaşkin, Doktor Altay, İbrahim xan, Məhəmməd xan (İ.Əfəndiyev ”Büllur sarayda”, ”Mahnı dağlarda qaldı”, ”Sevgililərin cəhənnəmdə vüsalı”, ”Tənha iydə ağacı”, ”Qarabağnamə”, ”Hökmdar və qızı”), Loğman və Əmir, Sabutay, Nadir (B.Vahabzadə ”Fəryad”, ”Rəqabət”), Fransa kralı (U.Şekspir ”Kral Lir”), N.Nərimanov (Ə.Əmirli ”Mesenat”) Həbibi (M.Seyidzadə ”Füzuli və Əsmər”), Piri baba (S.S.Axundov ”Qaraca qız”) və başqa obrazlar təkcə İlham Əsgərovun yaradıcılıq müvəffəqiyyəti olmayıb, milli teatrımızın tarixinin parlaq səhifələrini təşkil edir.

İstedadlı aktyor Azərbaycan Dövlət Televiziyasında U.Şekspirin ”İki veronalı”, İ.Əfəndiyevin ”Sarıköynəklə Valehin nağılı”, B.Vahabzadənin ”Kimdir haqlı”, A.Qəhrəmanovun ”Səndən xəbərsiz”, M.Süleymanlının ”Fatehlərin divanı” teletamaşalarında Valentin, Valeh, Fərrux, Fikrət, Bilgəxan kimi yaddaqalan obrazlar yaratmışdır. ”Azərbaycanfilm” kinostudiyasının istehsal etdiyi ”Qəzəlxan” və ”Əlahiddə vəziyyət” bədii filmlərində uğurla çəkilmişdir. O, radionun məşhur ”Bulaq” verilişinin unudulmaz aparıcılarından biri idi.

Milli teatr sənətinin inkişafında bütün qüvvəsini sərf edən istedadlı aktyorun xidmətləri həmişə yüksək qiymətləndirilmişdir. O, 2000-ci ildə Respublikanın əməkdar artisti, 2006-cı ildə xalq artisti fəxri adlarına layiq görülmüşdür. 2005-ci ildən Prezident mükafatçısı idi.

Unudulmaz sənətkar, gözəl insan İlham Əsgərovun əziz xatirəsi bütün sənətsevərlərin qəlbində əbədi yaşayacaqdır.

**Allah rəhmət eləsin!”**